# Roma Papası Azərbaycana dəvət olunub

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadənin başçılıq etdiyi Azərbaycandakı dini konfessiya nümayəndə heyəti fevralın 9-da Vatikanda bir sıra görüşlərdə iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyəti əvvəlcə Roma Papası XIV Leo ilə görüşüb.

Qonaqları salamlayan Papa XIV Leo Azərbaycandakı dini konfessiyaların birgə səfərini sülh və insan qardaşlığı nümunəsi kimi dəyərləndirib.

A.Paşazadə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın salamlarını çatdırıb, Azərbaycan-Vatikan əlaqələrinin yüksək səviyyəsini vurğulayıb. O, həmçinin mərhum Papa Fransiskin Azərbaycana səfərini və dini konfessiyaların rəhbərləri ilə görüşünü xatırladıb, bu görüşün də çox əlamətdar olduğunu bildirib. Qeyd edib ki, dövlət səfərləri və dini ictimaiyyət nümayəndələri ilə görüşlər Azərbaycanla Müqəddəs Taxt-Tac arasında münasibətləri və dinlərarası dialoqu gücləndirir. QMİ sədri Vatikanda nümayəndəliyin təsis olunmasının bu prosesə töhfə verəcəyini bildirib.

Şeyxülislam Bakıda inşa olunan ikinci katolik kilsəsinin açılışında Papa XIV Leonun da iştirakını arzulayıb. Həmçinin 2027-ci ildə Azərbaycan-Vatikan diplomatik münasibətlərinin 35 illiyi və Heydər Əliyev ilə Papa II İohann Pavelin ilk görüşünün 30 illiyi münasibətilə Roma Papasını ölkəyə dəvət edib. Bununla əlaqədar QMİ sədri Azərbaycandakı Dini Konfessiyaların Məşvərət Şurası adından dəvət məktubunu XIV Leoya təqdim edib.

Görüş zamanı Katolik Kilsəsinin Azərbaycandakı ordinarisi Yepiskop Vladimir Fekete Azərbaycandakı dinlərarası münasibətlərin yüksək səviyyəsindən, Dağ Yəhudiləri İcmasının rəhbəri Milix Yevdayev etnik-dini harmoniya mühitindən, Alban-udi Xristian Dini İcmasının sədri Robert Mobili alban-udi irsinin qorunmasından, Sefarad yəhudiləri Bakı icmasının rəhbəri Zamir İsayev isə tolerantlıq mühitindən danışıblar. Azərbaycan dinlərinin tarixi, dini abidələri və tolerantlıq mühiti barədə nəşrlər Papa XIV Leoya hədiyyə edilib.

Nümayəndə heyəti, həmçinin Vatikanın Dövlət katibi Kardinal Pyetro Parolin və Müqəddəs Taxt-Tacın Şərq kilsələri üzrə dikasteriyasının prefekti Kardinal Klaudio Qucerotti ilə də görüşüb.

Şeyxülislam A.Paşazadə Heydər Əliyev Fondunun Vatikandakı katakombaların bərpası, muzey və kitabxana əməkdaşlığı, həmçinin Bakıda yeni katolik kilsəsinin tikintisinin multikultural siyasətin nümunəsi olduğunu vurğulayıb. Dinlərarası dialoqun vacibliyi, Azərbaycan-Ermənistan sülh prosesinin əhəmiyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Şeyxülislam A.Paşazadə Azərbaycanın sivilizasiyalararası dialoq və dinlərarası əməkdaşlıq prosesində fəal iştirakını, həmçinin Vatikanda martın 9-da keçiriləcək iftar mərasimində Roma Papasının müraciətinin əhəmiyyətini qeyd edib. QMİ sədri, həmçinin işğaldan azad olunmuş ərazilərdə dini və mədəni irsin bərpası, məscid, kilsə və məbədlərin yenidən inşası barədə məlumat verib.

Azərbaycan. - 2026.- 11 fevral (№ 26).- S.6.